# Azərbaycan-Çin əlaqələri yeni yüksəliş mərhələsindədir

## İki ölkə arasında əməkdaşlıq getdikcə daha da dərinləşir

**Azərbaycanla Çin Xalq Respublikası arasında əlaqələr yüksələn xətlə inkişaf edir. İki ölkə arasındakı münasibətlər yeni mərhələdə uğurla davam etdirilir. Bu baxımdan Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə avqustun 30-dan sentyabrın 3-dək Çinə səfəri xüsusi əhəmiyyətə malikdir. Dövlət başçısı Tyançzində keçiriləcək Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Sammitində və Çin xalqının yapon işğalçılarına qarşı Müqavimət müharibəsində, eləcə də Ümumdünya Faşizm üzərində qələbənin 80 illiyinə həsr olunmuş yubiley mərasimində iştirak edəcək.**



Bu, Prezident İlham Əliyevin cari il ərzində Çinə ikinci səfəridir. Bu səfər ikitərəfli və çoxtərəfli əməkdaşlığa təkan verməklə hərtərəfli strateji tərəfdaşlıq münasibətlərini daha da gücləndirəcək.

Milli Məclisin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirib ki, iki ölkə arasında əlaqələr müxtəlif sahələrdə yüksələn xətlə inkişaf edir. Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artaraq 3,744 milyard dollara çatıb. Digər tərəfdən, Çin xarici ticarət dövriyyəmizdə 7,9 faiz payla Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşıdır. İdxalımızın 17,7 faizi sözügedən dövlətin payına düşüb. "Vacib məqamlardan biri də Azərbaycanın regionun nəqliyyat habına çevrilməsidir. Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü ildə Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta dəhlizlə 287 marşrut qatarı yola salınıb. Nəqliyyat dəhlizlərinin genişləndirilməsi və elektron xidmətlərdən daha çox istifadə edilməsi ilə bağlı işlər sürətlənib. "Qərb-Şərq" nəqliyyat dəhlizi ilə yanaşı, "Şimal-Cənub" xəttinin də ötürmə imkanları artırılıb, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürmə potensialı isə 1 milyon tondan 5 milyon tona çatdırılıb", - deyə deputat bildirib.

Onun sözlərinə görə, Azərbaycan ilə Çin arasında vizasız rejimə keçilməsi ölkələrin strateji və iqtisadi əlaqələrinin qarşılıqlı olaraq güclənməsinə imkan verir. 2024-cü ildə Çindən Azərbaycana gələn turistlərin sayı 1,9 dəfə artaraq 45,0 minə çatıb. Bu ilin ilk rübündə isə Çindən Azərbaycana gələnlərin sayı 1,8 dəfə artıb. Bu, o deməkdir, ilk 3 ayda 9 minə yaxın Çin vətəndaşı Azərbaycana səfər edib. Bu ilin ilk 7 ayında isə bu rəqəm 40 minə çatmaqdadır.

V.Bayramov sonda vurğulayıb ki, beləliklə, ölkələr arasında siyasi, iqtisadi və humanitar sahələrdə uğurlu əməkdaşlıq əlaqələrini daha da dərinləşdirmək üçün böyük potensial var. Bu baxımdan dövlət başçısının növbəti səfəri, Şanxay Əməkdaşlıq Təşkilatının sammitində iştirakı da mühüm əhəmiyyət daşıyacaq. İki ölkə arasında əlaqələr daha da genişlənəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 31 avqust (№184).- S.3.